# Yabanı bitkilərin tədarükünü gəlirli sahəyə çevirək

***Qəbələnin meşələri təkcə nadir və qiymətli ağacları ilə deyil, eyni zamanda dadlı, ləziz meyvələri, yabanı bitkiləri ilə də zəngindir. Bu bölgənin meşələrində 100-dən çox cır meyvə və giləmeyvə yetişir, yabanı və təbii bitkilər bitir. Hər bir meyvənin və giləmeyvənin yeyinti sənayesində, tibb elmində, kənd təsərrüfatında və digər sahələrdə mühüm əhəmiyyəti var.***

Yazın sonlarından başlayaraq ta qışın əvvəlinədək meşələrimizdə bol meyvələr aşıb-daşır. Moruğun, böyürtkənin, çiyələyin ardınca yetişən alçanın, itburnunun, yemişanın, cır almanın, armudun, zoğalın, əzgilin hər biri zəngin vitamin tərkibinə görə qiymətlidir. Böyük çay vadilərində bitən çaytikanı meyvəsi əsl dərmandır. Xalq təbabətində, əczaçılıqda geniş istifadə edilir. Zoğal, yemişan həmçinin özünəməxsus faydalı xassələrə malikdir. Əzgil insanlara qış fəslinin töhfəsi olmaqla yanaşı, tərkibində vitaminlərlə, turşularla zəngin bir meyvə növüdür. İnsanlar əzgili həm qida məhsulu, həm də ishala qarşı vasitə kimi qəbul edirlər.



Digər bir giləmeyvənin—yemişanın faydasını insanlar çox qədim zamanlardan biliblər. Xalq təbabətində istifadə etməklə yanaşı, onun meyvələrindən mürəbbə, kompot hazırlayıblar və bu ənənə indi də davam edir.

Kənd təsərrüfatında yemişanın əhəmiyyəti daha böyükdür. Belə ki, sağmal inəklərin yeminə yemişanın meyvələrini əlavə etdikdə bu cür yemləmə nəticəsində inəyin südü həm artır, həm də yağlı olur.

Dərman istehsalı müəssisələrinə xammal kimi verilə biləcək aşağıda qeyd edilən bitkilərdən bir neçəsi barədə söz salmaq oxuculara maraqlı olardı.

Kəklikotunun, itburnunun, çobanyastığının, moruğun, böyürtkənin, çiyələyin və digər bitkilərin müalicəvi olduğu məlumdur. Amma Qəbələnin Savalan kəndinin ərazisində yetişən cır narın faydalı olduğunu heç də hamı bilmir. Böyrək və qaraciyər xəstəliklərinə tutulanlara onun şirəsini içmək çox xeyirlidir. Narın qabığı da faydalıdır. Onu çay kimi dəmləyib mədəbağırsaq xəstəliklərində dezinteriyaya qarşı qəbul edirlər.



Qəbələ torpağında bitən onlarca yabanı meyvə və tərəvəz bitkisi ekoloji cəhətdən təmiz ərzaq məhsullardır. Yabanı bitən gicitkən, qulançar, cimcilim, təpəotu, qırxbuğum, baldırğan və digər tərəvəz bitkiləri də insanların qidalanmasında və sağlamlığında mühüm əhəmiyyət kəsb edir. Bu bitkilərin plantasiyalarını yaratmaq və alınan xammal əsasında müxtəlif qida məhsulları istehsal edərək daxili bazara çıxarmaq mümkündür.

Yabanı tərəvz bitkilərindən böyük çeşiddə yeməklər hazırlamaq olar. Məsələn, unnuca dovğa, qovurma, buğlama kimi, xörəklərə, göyərti qutabına yaxşı dad verir. Ən başlıcası isə bu bitkinin insan orqanizmi üçün xeyirli olmasıdır. Gicitkən, cincilim, qazayağı bitkilərindən də eyni cür istifadə etmək olur.

Yabanı bitkilərdən təkcə yeyinti və əczaçılıq sənayesində deyil, onların müxtəlif növlərindən bəzək əşyaları, ədviyyatlar, efir yağları, boyaq maddələri hazırlanır. Yabanı bitkilərin çoxu təzə halda, eləcə də qurudulub tədarük edilmiş formada ev heyvanları üçün əvəzsiz yemdir.

Bir məsələni də xatırlatmaq istəyirəm. Yaxşı yadımdadır. Ötən əsrin 50—60-cı illərində Qəbələ şəhərinin mərkəzində, Nic, Bum, Vəndam qəsəbələrində meşə meyvələrinin tədarükü məntəqələri fəaliyyət göstərirdi. Həmin dövrlərdə rayon əhalisi itkisiz olaraq meşlərdə yetişən cır meyvələri toplayaraq tədarük məntəqələrinə təhvil verib əvəzində xeyli məbləğdə pul qazanırdı. Qurudulmuş cır meyvə və giləmeyvələrin əksər hissəsi xaricə ixrac edilir, bir hissəsi isə şirə, kompot istehsalında istifadə olunurdu. Bu əhalinin gündəlik dolanışığına yardımçı olurdu. Amma sonralar bu tədarük məntəqələri ləğv ediləndən bəri meşələrimizdə yetişən bol cır meyvə məhsulları yığılmır, nəticədə məhv olur. Bütün bünları nəzərə alaraq bölgəmizdə həmin meyvələrin planlı şəkildə tədarükünü təşkil etmək üçün zəruri tədbirlərin görülməsi vaxtı çatmışdır.Əgər belə olarsa, təbiətin Qəbələyə səxavətlə bəxş etdiyi bu nemətlər adamlarımızın rifahına və ayrı-ayrı sahələrin inkişafına xeyli təkan verər.

**✍ Aslan CƏLİLOV,**
**«Qəbələ».**

# Maarifləndirici seminar təşkil olundu

***Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının təşkilatçılığı ilə Qəbələ Regional Gənclərin Resurs Mərkəzi İB tərəfindən "Gənclər arasında dini radikalizm təzahürlərinə qarşı maarifləndirici seminarlar" layihəsi çərçivəsində Qəbələdə tədbir keçirilmişdir.***

Qəbələ Regional Gənclərin Resurs Mərkəzi İctimai Birliyinin sədr müavini, layihə rəhbəri Anar Məhərrəmov layihə haqqında məlumat verdi. Layihənin məqsədi cəmiyyətin, xüsusilə də gənc nəslin dini radikalizmə və ekstremizmə qarşı mübarizə ruhunda tərbiyə olunmasına kömək etməkdən ibarət olduğunu qeyd etdi.

Tədbirdə iştirak edən Qəbələ Rayon İcra Hakimiyyətinin nümayəndəsi Azər Şirinov çıxış edərək "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına, tolerantlığa, fəaliyyət göstərən dini icmalara, rayonda yaşayan etnik xalqların adət-ənənələrinin, milli mədəniyyətlərinin, dillərinin qorunmasına, qeyri-ənənəvi və zərərli təriqətlərin yayılmasının qarşısının alınmasına dair keçirilən tədbirlər haqqında geniş məlumat verdi.

Daha sonra layihənin eksperti Ümüdvar Həsənov layihənin aktuallığı, gənclərin bu sahədə məlumatlı olmasının əhəmiyyəti, dövlət-din münasibətləri və s. haqqında ətraflı danışdı.

Sonda "Fitnə" sənədli filmi nümayiş etdirildi.

**Qəbələ Regional Gənclərin Resurs Mərkəzi İB-nin mətbuat xidməti.**

## *Sadə peşə adamları*

# Tanış olun: usta Xeyrəddin



Hələ qədimdən sadə peşə adamlarına böyük ehtiyac olub. Peşə adamlarının çoxu seçdiyi peşəyə, sənətə öz bacarığı, mədəniyyəti, işgüzarlığı, insanlarla davranışı ilə şöhrət gətirib. Min illərin arxasından bu günə gəlib çıxan peşələrdən biri də bərbərlikdir. Haqqında söhbət açacağımız Xeyrəddin Cabbarov düz qırx il bundan öncə, hələ yeniyetməlik çağlarından ömrünü bərbərlik peşəsinə bağlayıb. 1967-ci ildə usta şagirdi kimi fəaliyyətə başlayan Xeyrəddin 2 il bu sənətin incəliklərini, ona müraciət edən insanlarla ünsiyyət qurmaq bacarığını öyrənib. 1971-ci ildə orduya cağrılan Xeyrəddin Cabbarov xidmət etdiyi daxili qoşun alayında nümunəvi xidmətinə görə fərqlənib, starşina rütbəsinə qədər yüksəlib. O vaxtkı SSRİ Daxili İşlər Naziri, Ordu generalı M. Şelokovdan şəxsi təşəkkürnamə alıb. Milis alayında həqiqi xidmətini başa vuran Xeyrəddin Cabbarova milis sıralarında xidmət etmək təklif olunub. Ancaq yazımızın qəhrəmanı öz sadə peşəsinə qayıtmağı üstün tutub.

1973-cü ildə yenidən öz sevimli bərbər peşəsinə qayıdan Xeyrəddin usta bu illər ərzində daha da məşhurlaşıb, tanınıb.

Xeyrəddin Cabbarov yaxşı sənətkar olmaqla yanaşı (yaşı çox olmasa da) yaxşı ağsaqqaldır. Onu tanıyanların və ya ona müraciət edənlərin elə bir xeyir və hüzn işi olmaz ki, Xeyrəddin usta orada fəal iştirak etməsin. O, 1993-cü ildən bəri keçirilən bütün seçkilərdə məntəqə seçki komissiyalarında üzv olub, secicilərin rəğbətini qazanıb. Nümunəvi ailə başçısı, mehriban atadır. Övladları Mübariz, Eldəniz, Tofiq sahibkar, qızı Dilbər evdar qadındır.

Nəvələri də babaları Xeyrəddinə layiq böyüyürlər. Məktəbli nəvələri öz davranış və təhsilləri ilə müəllimlərin və sözsüz ki, babalarının hörmətini qazanıblar.

**«Qəbələ».**
**Səhrab Umuyev.**

# İşlər uğurla davam edir

Mirzəbəyli sakinlərinin əsas məşğuliyyəti bağçılıq və maldarlıqdır. Burada fındıq bağları digər meyvə bağlarına nisbətən çoxluq təşkil edir. Ərazi fındıqçılıq üçün daha əlverişlidir. Bu il fındıq məhsullarının bazar qiymətinin yüksək olması kəndlilərin güzəranına müsbət təsir göstərib. Odur ki, kənd sakinləri yeni fındıq bağlarının salınmasına böyük maraq göstərir. Mirzəbəylilər noyabrın 30-dək 5 hektardan çox ərazidə fındıq tingləri əkiblər. Bundan başqa mövcud fındıq bağlarının seyrəlmiş yerlərinə də fındıq tingləri əkilərək, bərpa edilir. Ərazi dairəsinə daxil olan Mirzəbəyli və Courlu eyni zamanda 15—20 il öncə qabaqcıl baramaçılıq kəndləri sayılırdı. Buna görə də kənd camaatı möhtərəm Prezidentimizin çağırışından ruhlanaraq barama qurdlarının yem bazasını yaratmaq üçün toxmaçar bağları salınmasına başlamışlar. Artıq 200-dən çox yeni növ toxmaçar tingi basdırılıb. Bu sahədə işlər uğurla davam edir.

**✍ Qüdrət SƏMƏDOV.**